Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN
İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 198 (1326) 26 oktyabr - 27 oktyabr 2016-cı il

# İNDİ GÖYÇAYDA BÜTÜN MƏSƏLƏLƏRİN ANA XƏTTİ YALNIZ YÜKSƏLİŞDƏN KEÇİR

### *İşgüzarlıq və səmimiyyət uğurlara aparır*

**Son vaxtlar Göyçay rayonunda xüsusi canlanma və yüksək işgüzarlıq hiss olunur. Təkcə tikinti-quruculuq, abadlıq, müxtəlif istehsalat sahələrində deyil, idarə-müəssisələrin də fəaliyyətində nəzərəçarpacaq fəallıq hökm sürür. Eləcə rayon icra hakimiyyəti aparatından başlanan bu dinamik və effektli fəaliyyət ritmi durğun sayıla biləsi sahələrə belə sirayət edərək nikbinlik yaradır. Yəni istər rayon mərkəzində, istərsə də kəndlərdə yaşayıb-çalışan hər bir sakin inkişaf və firavanlıq üçün öz bacarığını, potensialını inamla ortalığa qoyur, bütün məsələlərdə nümunə göstərir.**

Müntəzəmliklə şəhərdə və kəndlərdə əhali ilə görüşlər keçirən, bir sıra vacib məsələlər ətrafında söhbətlərin təşkilatçısı və ideya müəllifi olan Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə az müddət ərzində görünən dinamik fəaliyyəti məhz belə səmimi, işgüzar və faydalı yanaşma metodları ilə canlandıraraq rayon camaatının rəğbətini qazanmışdır. Başçının komandası da öz işini, təbii ki, bu yöndə quraraq insanlarda ruh yüksəkliyi yaradır. Əlbəttə, ölkə rəhbərliyinin də dövlət məmurlarından tələb və istəyi məhz fəaliyyətlərində xalqa və dövlətə yüksək səviyyədə xidmətin qurulması, daha da inkişaf etdirilməsidir.

Sevindirici haldır ki, Göyçayda bütün bu məsələlər normal məcraya düşməklə yüksək əhval-ruhiyyə yaradır.



### *Rayon rəhbərliyi gələcəyə inamla baxır*

2016-cı ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr edilmiş ümumrayon yığıncağında Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə məruzə ilə çıxışında demişdir:

- 2016-cı ilin ötən ayları dünyanın siyasi və iqtisadi həyatında yaşanan hadisələr bu ilin gərgin, çətin il olduğunu göstərir. Dünya İqtisadiyyatında böhranlı vəziyyət davam edir və neftin qiymətinin aşağı düşməsindən neftlə zəngin olan ölkələr daha çox əziyyət çəkir. Azərbaycan da təbii ehtiyatları zəngin olan ölkələrdəndir. Bununla belə ölkədə aparılan düzgün iqtisadi siyasət, həyata keçirilən iqtisadi islahatlar inkişafın davamlılığını qoruyub saxlamağa imkan verir. Bütün bunlar və gələcək üçün müəyyənləşdirilən hədəflər barədə Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ətraflı bəhs olunmuşdur.

> **"...Kənd yollarının tikintisi gedir. Həm dövlət büdcəsindən, eyni zamanda, Prezidentin ehtiyat fondundan vəsait ayrılır. İndi işlər gedir. Bir neçə kəndi birləşdirən yollar tikilməkdədir. Gələcəkdə bu layihələrə də əlavə vəsait ayrılacaqdır".**
>
> *Azərbaycan Respublikasının Prezidenti*
> *İlham Əliyev*

Prezident İlham Əliyev çıxışında qeyd etmişdir ki, ölkədə sənaye potensialı 0,2 faiz artıb, qeyri-neft sektoru getdikcə inkişaf edir. Bu sahədə 3,6 faiz artım müşahidə olunub. Qeyri-neft sektorunun aparıcı sahəsi olan kənd təsərrüfatında artım 2,4 faiz təşkil edib. Ciddi iqtisadi islahatlar aparılır, idarəetməni və digər sahələri əhatə edən islahatlar öz bəhrəsini verir. İxracı stimullaşdırmaq, idxaldan asılılığı azaltmaq istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Təsadüfü deyildir ki, Azərbaycanda aparılan islahatları dünyanın aparıcı iqtisadi mərkəzləri də yüksək qiymətləndirir və bu yaxınlarda dünyanın bir nömrəli iqtisadi forumu olan DAVOS dünya iqtisadi forumu Azərbaycan iqtisadiyyatını rəqabət qabiliyyətinə görə 37-i yerə layiq görüb. Ölkə iqtisadiyyatının çoxşahəli olması, kompleks şəkildə inkişaf etməsi ölkə prezidentinin diqqət mərkəzindədir. Görülən tədbirlər nəticəsində kənd təsərrüfatında ciddi dönüş yaranıb. Konkret proqramlar və layihələr icra edilib, vəsaitlər ayrılıb, texnikalar alınıb, subsidiyalara düzəlişlər edilir. Diqqət qeyri neft sektorunun əsas qolu olan kənd təsərrüfatının ən vacib və ənənəvi sahələrinə yönəldilib.

Dövlət başçısı idxaldan asılılığın aradan qaldırılmasının mümkün olduğunu və bunun yollarını göstərmişdir. Ölkə prezidenti keçirilən iclasda iqtisadiyyatın hansı sahəsindən danışmasından asılı olmayaraq orada xalqın güzaranı, maddi rifah məsələlərinə toxunulmuş, bunların önəmli olduğu vurğulanmışdır.

### *Rayon həyatının müxtəlif sahələri yüksələn göstəricilərdə*

2016-cı ilin doqquz ayında rayonumuzun sosial-iqtisadi inkişafında da bir sıra uğurlar əldə edilmiş, iqtisadiyyatın əsas sahələri üzrə istehsal olunmuş məhsul və xidmətlərin həcmi 2015-ci ilin müvafiq dövrünə nisbətən 3,9 faiz və ya 7 milyon manat artaraq 187,7 milyon manat təşkil etmişdir. Ötən müddət ərzində sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 21,7 milyon manatlıq məhsul istehsal olunmuş və xidmətlər göstərilmişdir. Keçən ilin müvafiq dövrü ilə müqayisədə sənaye məhsulu 31,5 faiz artmışdır ki, bunun da 83,4 faizi qeyri-dövlət bölməsinin payına düşür.

Rayonun aqrar sahəsində də müəyyən uğurlar əldə edilmişdir. Hesabat dövründə 37,1 min ton taxıl toplanmışdır ki, bu da ötən ilə nisbətən 659 ton və ya 1,2 faiz çoxdur.

Hər hektardan məhsuldarlıq 0,2 senter artaraq 26,7 sentnerə çatmış, 548 ton dən üçün qarğıdalı, 1871 ton kartof, 23109 ton meyvə, 16534 ton tərəvəz, 502 ton üzüm istehsal olunmuşdur. Heyvandarlıq sahəsi daha dinamik inkişaf etmişdir. Rayonun fərdi təsərrüfatlarında keçən ilin müvafiq dövrünə nisbətən iri buynuzlu mal-qaranın sayı 0,3 faiz artaraq 48250 başa, xırda buynuzlu heyvanların sayı 2,4 faiz artaraq 68399 başa çatmışdır. Keçən ilin müvafiq dövrünə nisbətən ət istehsalı 0,7 faiz, süd istehsalı 0,4 faiz, yumurta istehsalı 1,7 faiz, yun istehsalı 1,1 faiz artmışdır. Ölkə Prezidentinin kənd təsərrüfatının, konkret olaraq pambıqçılığın və baramaçılığın inkişafı ilə bağlı tapşırıqlarına müvafiq olaraq rayonun kəndlərində istifadəsiz torpaq sahələrində 200 hektar ərazidə çiyid əkilmiş və sentyabr ayından məhsul toplanışına başlanılmışdır. Havaların olduqca əlverişsiz keçməsi pambıq yığımına öz mənfi təsirini göstərsə də, müəyyən nəticələrə ümidlərlə baxılır. Gəlirli sahə olan baramaçılığın bərpası istiqamətində ilk addımlar atılmış, cari ilin may ayında kümdarlara 475 qram barama qurdu paylanılmış və 1139 kq. barama tədarük edilmişdir. Kənd əməkçiləri tərəfindən 2017-ci ilin məhsulu üçün 6077 hektar sahədə şum qaldırılmış, 445 hektar sahədə dən üçün payızlıq bitkilərin əkini aparılmışdır. 2016-cı ilin doqquz ayında iqtisadi və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 19,1 milyon manat investisiya yönəldilmişdir. İnvestisiyaların 80,5 faizi istehsal təyinatlı obyektlərin tikintisində istifadə olunmuşdur.



Cari ilin ötən 9 ayı ərzində rayon əhalisinin həyat səviyyəsi yüksəlmiş, ticarət və xidmət şəbəkələrindən rayon sakinlərinə 219 milyon manatlıq istehlak malları satılmış, 40,2 milyon manatlıq pulu xidmətlər göstərilmişdir. Ötən ilin müvafiq dövrünə nisbətən pərakəndə əmtəə dövriyyəsi 2,2 faiz, pulu xidmətlərin həcmi 2,4 faiz artmışdır...

### *Xidmət sahələri: uğurlar və nöqsanlar*

**Rabitənin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində müəyyən tədbirlər görülmüş, yanvar-sentyabr aylarında əhaliyə, müəssisə və təşkilatlara 602,5 min manatlıq rabitə xidmətləri göstərilmişdir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 4,5 faiz çoxdur.**

**(ardı gələn sayımızda)**

***Məzahir ƏHMƏDZADƏ***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ